# Əlilliyi olan gənclərə dövlətin böyük qayğısı

## Ekspertlərin fikrincə, Prezidentin imzaladığı sərəncam fiziki məhdudiyyətli şəxslər üçün təhsilin əlçatanlığını təmin edəcək



**Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda deyilir ki, Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) təhsil səviyyələrində, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil müddəti ərzində təhsil haqqı xərcləri 2019-2020-ci tədris ilindən etibarən dövlət büdcəsinin vəsaiti hesabına ödənilsin. Qeyd edək ki, hazırda ali təhsil müəssisələrində bakalavriat, magistratura səviyyələrində, eləcə də orta ixtisas məktəblərində ödənişli əsaslarla təqribən 2500 nəfər fiziki məhdudiyyətli şəxs təhsil alır.

Sərəncamın fiziki məhdudiyyətli şəxslərin təhsilə və sosial həyata inteqrasiyasına necə təsir edəcəyini, növbəti mərhələdə hansı üstünlüklər gətirəcəyini öyrənməyə çalışdıq.

**Masər Həsənov** fiziki məhdudiyyətli gənclərimizdən biridir. Düzdür, o bu sərəncamdan faydalana bilməyəcək, çünki təhsilini bitirib. Amma qeyd edir ki, təhsil aldığı dövrdə universitetin ona yardım etməsinin böyük köməyi olub: "Mən Azərbaycan Dövlət İncəsənət Universitetini bitirmişəm. Həmin dövrdə təhsil haqqımı ödəməyə universitet kömək etmişdi. Lakin köməklik hər kəsə göstərilmirdi deyə, bir çox əlilliyi olan şəxslər təhsildən geri qalırdılar. Bu sərəncamın verilməsi təhsil almaq yolundakı əngəllərin böyük bir qismini aradan qaldırdı. 1-ci və 2-ci dərəcə əlilliyi olan şəxslər artıq onlara verilən pensiyaları təhsil haqqını ödəmək üçün yığmayacaqlar, başqa tələbatları üçün xərcləyəcəklər. Məncə, bu sərəncam əlilliyi olan gənclərimizin ailələrinə də böyük kömək olacaq".

**Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov** qeyd edir ki, bu çox inqilabı sərəncamdır: "Əlilliyi olan şəxslər arasında xeyli istedadlı şəxslər var ki, ödəniş məsələsinə görə təhsil ala bilmirlər. Bu sərəncamdan sonra 1-ci və 2-ci dərəcə əlilliyi olan şəxslərin, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqını dövlət ödəyəcək. Düşünürəm ki, bu çox inqilabı sərəncamdır. Deyilənlərə görə, hazırda 2500-ə yaxın belə şəxs var. Növbəti ildən isə bu say artacaq. Çünki ödəniş probleminə görə təhsil ala bilməyənlərin bu problemi aradan qalxdı. Növbəti mərhələdə isə iş təhsil müəssisələrinin üzərinə düşür. Belə ki, məktəblər, universitetlər əlilliyi olan şəxslər üçün əlçatan olmalıdır. Tədris müəssisələri həmin şəxslər üçün müyəssərliyi təmin etməlidirlər. Yəni, ödəniş problemi həll olundu, amma onların universitetlərə gəlməsi, digər tipik şəxslər kimi auditoriyada təhsil almaları üçün şərait yaradılmalıdır. İnklüzivliyi tam təmin etmək lazımdır. Məncə, Təhsil Nazirliyi paralel olaraq bu işləri də həyata keçirəcək. Onu da qeyd edim ki, Avropada çoxdan passiv dəstəkdən aktiv dəstək siyasətinə keçilib. Yəni dövlət bu şəxslərə təhsil verməklə onların gələcəkdə işlə təmin olunmasına şərait yaradır. Beləliklə, onlar dövlətdən yardım alan təbəqədən vergi ödəyənə keçə bilərlər".

**"Duyğu" sosial reabilitasiya ictimai birliyinin əməkdaşı, sosial işçi Elmir Valehli** bu sərəncamın əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasına da müsbət təsir edəcəyini deyir: "Bir çox əlilliyi olan şəxslər var ki, kifayət qədər maddi imkanı olmadığı üçün təhsil ala bilmirlər. Ödənişli əsaslarla təhsil almaq onlar üçün çox çətindir. Çünki yola, müalicəyə və s. yerlərə pul xərcləndiyindən, onlar təhsilə pul ayıra bilmirdilər. Amma hazırda belə bir sərəncamın verilməsi çox təqdirəlayiqdir. Bu sərəncamdan sonra təhsil onlar üçün əlçatan olacaq. Onlar artıq düşünməyəcəklər ki, ilin axırı təhsil müəssisəsinə nə qədər pul verməlidirlər. Bu, digər tərəfdən əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasına da müsbət təsir edəcək. İctimai iaşə obyektlərində, parklarda, yollarda onları daha çox görəcəyik. Dövlətin bununla bağlı inklüziv təhsil proqramı var. Elə inklüziv təhsil proqramının da əsas məqsədi əlilliyi olanlarla tipik şəxslərin bir yerdə təhsil almasıdır. Prezidentin son dövrlər sosial sahədə verdiyi sərəncamlar onu göstərir ki, həqiqətən də bu sahəyə xüsusi diqqət və qayğı ayrılır. Düşünürəm ki, yaxın 2-3 il ərzində bu sərəncamlar öz bəhrəsini verəcək".

**Əlil Təşkilatları İttifaqının sədri Davud Rəhimov** qeyd edir ki, əlilli olan şəxslərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı silsilə işlər görülür: "İlin əvvəlində Prezidentin sərəncamı ilə əlilliyi olan şəxslərə verilən sosial müavinətlərin artırılması, bu yaxınlarda da təhsil haqqı ilə bağlı belə bir sərəncamın imzalanması olduqca əhəmiyyətlidir. Adıçəkilən sərəncamların hər ikisi əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasında, inklüziv təhsilə cəlb olunmasında böyük rol oynayır. Təhsil haqlarını dövlətin ödəməsi əlilliyi olan şəxslər üçün təhsili əlçatan edəcək. Digər tərəfdən, bu sərəncam əlilliyi olan şəxslərin gələcəkdə əmək bazarına daxil olmasına imkan yaradacaq. Onlar təhsil aldıqları ixtisas üzrə işləyə biləcəklər. Bu da onların dövlətdən aldıqları sosial müavinətdən asılılığını aradan qaldıracaq".

**Günel Azadə**